**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİ VƏ ONUN KEYFİYYƏTCƏ YAXŞILAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 –"Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53- İqtisad Elmləri

İddiaçı: **Jalə Rəhman qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2021**

Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunun "Həyat səviyyəsinin sosial-iqtisadi problemləri" şöbəsində yerinə yetirilib

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Şahbaz Musa oğlu Muradov**

Rəsmi opponentlər: iqtisad üzrə elmlər doktoru, professor
**Elşad Yaqub oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Arzu Alim qızı Hüseyn**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Kamran Nurəddin oğlu Abdullayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
İqtisad elmləri doktoru, professor
**NazimMüzəffər oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi:
İqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri:
İqtisad elmləri doktoru, professor
**Elşad Yaqub oğlu Məmmədov**

# MÜNDƏRİCAT

**GİRİŞ**
**I FƏSİL HƏYAT SƏVİYYƏSİNİN MAHİYYƏTİ, ONU XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİLƏR SİSTEMİNƏ ELMİ-NƏZƏRİ BAXIŞLAR**
1.1. Həyat səviyyəsi anlayışı və ona nəzəri baxışlar
1.2. Həyat səviyyəsini xarakterizə edən göstəricilər sisteminə metodoloji yanaşmalar
**II FƏSİL AZƏRBAYCANDA KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN MÜASİR VƏZİYYƏTİ VƏ ONUN DƏYİŞİLMƏSİ MEYLLƏRİ**
2.1. Kənd əhalisinin həyat səviyyəsinə təsir göstərən sosial-iqtisadi amillərin təhlili
2.2. Kənd əhalisinin pul gəlirlərinin və istehlak xərclərinin strukturunda baş verən keyfiyyət dəyişikliklərinin təhlil edilərək qiymətləndirilməsi
2.3. Kənd əhalisinin uzunmüddət istifadə olunan əşyalarla təmin edilməsinin müasir vəziyyəti və keyfiyyətcə zənginləşməsinin qiymətləndirilməsi.
2.4. Gəlir və istehlak xərclərinin quruluşunda regional fərqlər və onlara təsir göstərən amillərin dəyərləndirilməsi
**III FƏSİL KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ PERSPEKTİVLƏRİ**
3.1. Kənd yerlərində sahibkarlığın inkişafı kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqaməti kimi
3.2. Kənd yerlərində əhalinin məşğulluğunun artırılması yolları
3.3. Kənd yerlərində yoxsulluğun azaldılması yolları
**NƏTİCƏ VƏ TƏKLİFLƏR**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**
**İXTİSARLARIN VƏ ŞƏRTİ İŞARƏLƏRİN SİYAHISI**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması sosial-iqtisadi proseslərin davamlı və səmərəli inkişafının əsas şərtlərindən biridir. Bu problemin həlli bütün dövrlərdə dünya ölkələrinin hər birini düşündürmüş və narahat etmişdir. Azərbaycanda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin apardığı sosial siyasətin əsas məramını təşkil edir.

Respublika əhalisinin demək olar ki, yarısını təşkil edən kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin əsas məramını təşkil edir. Bu baxımdan kənd yerlərində mövcud sərvətlərdən səmərəli istifadə etməklə sənaye-emal sahələrinin və kənd təsərrüfatı ilə yanaşı alternativ qeyri-kənd təsərrüfatı sahələrinin inkişafının genişləndirilməsi, yoxsulluğun azaldılması, həyat səviyyəsinin yüksəldilməsi, regionların sosial-iqtisadi cəhətdən tarazlı inkişafının təmin edilməsi dövlətin qarşısında duran prioritet məsələlərdəndir.

Respublikada iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin 36,3%-nin kənd təsərrüfatının payına düşməsinə baxmayaraq, kənd təsərrüfatı üzrə yaranan ÜDM-in ölkə üzrə ÜDM-də xüsusi çəkisi 5,6% təşkil etməsi və bu sahədə çalışanların OAƏH-nın həm iqtisadiyyatda OAƏH-dan, həm də digər iqtisadi fəaliyyət növləri ilə üzrə OAƏH ilə müqayisədə aşağı olması kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasını dövlətin əsas vəzifələrindən birinə çevirmişdir.

Məlum olduğu kimi, XX əsrin 90-cı illəri ərzində respublikanın sosial-iqtisadi sistemində mühüm dəyişikliklər baş vermişdir. Belə ki, bazar münasibətlərinə sürətli keçid istehsalın tənəzzülü, işsizlər ordusunun yaranması və inflyasiya ilə müşayiət olunmuş, nəticədə əhalinin, eləcədə kənd əhalisinin böyük hissəsinin həyat səviyyəsi pisləşmiş, həmçinin respublikanın iqtisadi təsərrüfatının əsas həyati vacib sisteminin fəaliyyət effekti əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Kənd təsərrüfatı məhsulları istehsalı sahələrində yaranan geriliklər, mövcud təsərrüfatların dağılması kənd yerlərində əhalinin gəlir əldə etmək imkanlarını azaltmış, infrastruktur sahələrinin inkişafının və kənd əhalisinin

həyat səviyyəsinin pisləşməsinə və kənd yerlərində yoxsulluq səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Hazırda bütün bunları bərpa etmək və kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar olaraq dövlət öz üzərinə böyük məsuliyyət götürməklə daha çox üstünlüyü regionların inkişafına verməkdədir.

Azərbaycan Respublikasının Prezidentinin bilavasitə rəhbərliyilə dayanıqlı inkişafa nail olmaq məqsədilə Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə yol xəritələri təsdiq edilmiş, qeyri-neft sektorunun və gəlir gətirən əmək tutumlu sahələrin inkişaf etdirilməsi, yerli istehsalın və məhsulların ixracının stimullaşdırılması, kiçik və orta sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, milli iqtisadiyyatın bütün səviyyə və sferalarında iqtisadiyyatın səmərəliliyi və rəqabətqabiliyyətinin artırılması, aqrar sahəyə dotasiya və subsidiyaların verilməsi və etibarlı ərzaq təminatının yaradılması istiqamətində böyük işlər görülür.

Beləliklə, kənd yerlərində əhalinin sosial-iqtisadi vəziyyətinin təhlili və sadalanan cəhətlər kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasını şərtləndirir.

Kənd əhalisinin həyat səviyyəsinin daima yüksəldilməsi ilə bağlı irimiqyaslı proqramlar həyata keçirilməsi, güclü iqtisadi qanunvericilik bazası yaradılması ilə müsbət nəticələr əldə edilmişdir. Görülən tədbirlərin nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 2005-ci ildəki 29%-dən 2018-ci ildə 5,1%-ə enmiş, kənd əhalisinin ayda hər nəfərə düşən gəlirlərinin həcmi 60,3 manatdan 264,4 manata yüksəlmişdir.

Bununla belə, kənd yerlərində sosial-iqtisadi potensialın artırılması, əhalinin rifahının yüksəldilməsi ilə bağlı həll olunması vacib problemlər də qalmaqdadır.

Yuxarıda qeyd etdiyimiz məqamlar tədqiqat mövzusunun mühüm əhəmiyyət kəsb etdiyini və obyektiv zərurətdən irəli gəldiyini göstərir və kənd əhalisinin həyat səviyyəsinə birbaşa təsir edən amil kimi kənd əhalisinin pul gəlirlərinin, o cümlədən əmək haqlarının artırılması, yeni iş yerlərinin açılması və kənd əhalisinin məşğulluğunun artırılmasını, onların məişət şəraitinin

yaxşılaşdırılması, keyfiyyətli səhiyyə, təhsil xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi kimi vacib məsələlərin elmi araşdırılmasını aktual etmişdir.

Əhalinin həyat səviyyəsi problemi, gəlir və xərclərin quruluşu bütün dövrlərdə müxtəlif ölkələrin iqtisadçı alimlərinin diqqət mərkəzində olmuşdur. Bu problemin tədqiq olunmasına K.Marks (78), A.Smit (94), D.Rikardo (91) kimi klassiklər öz əsərlərində böyük diqqət vermişlər. Eyni zamanda xarici iqtisadçı alimlərdən A.Y.Surinov (95), V.F.Mayer (76), D.A.Syusyura (96), V.M.Jerebin (72), Qlebova İ.S. (67), A.N.Romanov (72) əhalinin həyat səviyyəsi və keyfiyyətinin müxtəlif aspektlərini təhlil etmişlər. Azərbaycan iqtisadçı alimlərindən Ş.M.Muradov (42), N.Müzəffərli (İmanov) (45), C.B.Quliyev (31), T.Ə.Quliyev (34), İ.H.Alıyev (4,5,6), Ə.Q.Əlirzayev (17), R.Ş.Muradov (41), F.C.Əliyev (28), A.N.Muradov (40), R.S.Abdullayeva (3), P.S.Həsənov (45), A.F.Abbasov (1) və başqaları müasir mərhələdə əhalinin həyat səviyyəsinin müxtəlif istiqamətləri üzrə həm nəzəri-metodoloji, həm də makro və mikro səviyyədə dəyərli tədqiqatlar aparmışlar.

Lakin, bazar münasibətləri şəraitində öz spesifik xüsusiyyətləri ilə şəhər əhalisindən fərqlənən kənd əhalisinin həyat səviyyəsi kompleks və sistemli şəkildə əhatəli tədqiq edilməmişdir.

**Tədqiqatın obyektini** ev təsərrüfatları timsalında Azərbaycan Respublikasının kənd əhalisi, **predmetini** isə onların həyat səviyyəsində baş verən dəyişikliklərin qiymətləndirilməsi və yaxşılaşdırılması istiqamətlərinin müəyyən edilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi əhalinin həyat səviyyəsi ilə bağlı nəzəriyyə, baxış və yanaşmaların öyrənilib ümumiləşdirilməsi və Azərbaycan Respublikasının kənd əhalisinin həyat səviyyəsinin müasir durumunu və ona təsir edən amilləri aşkara çıxarıb, təhlil edilib qiymətləndirilməsi əsasında kənd əhalisinin həyat səviyyəsinin keyfiyyətcə yaxşılaşdırılmasına dair təklif və tövsiyyələrin işlənilib hazırlanmasından ibarətdir.

Qarşıya qoyulmuş məqsədə müvafiq olaraq tədqiqat işində aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- “həyat səviyyəsi” anlayışına və onun göstəriciləri sisteminə dair nəzəriyyə, baxış və yanaşmaların tədqiqi;

- Azərbaycan Respublikasının kənd əhalisinin həyat səviyyəsinin müasir durumu və ona təsir edən amillərin aşkara çıxarılıb təhlil edilməsi və qiymətləndirilməsi;

- Azərbaycan Respublikasının kənd yerlərində ev təsərrüfatlarının pul gəlirlərinin və istehlak xərclərinin quruluşunda baş verən keyfiyyət dəyişikliklərinin təhlili və qiymətləndirilməsi;

- fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə kənd təsərrüfatının məhsulu, kənd təsərrqüfatında əsas kapitala yönəldilən investisiyalar və inflyasiyanın kənd təsərrüfatında yaranan ÜDM-ə təsirinin ekonometrik qiymətləndirilməsi;

- Azərbaycan Respublikasında kənd əhalisinin həyat səviyyəsinin keyfiyyətcə yaxşılaşdırılmasına dair təklif və tövsiyyələrin işlənib hazırlanması.

**Tədqiqatın metodları.** Tədqiqat işində müqayisəli iqtisadi-statistik təhlil, ekonometrik qiymətləndirmə, ümumiləşdirmə, sistemli təhlil, şəxsi müşahidə və mühakimə, qrafik metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan müddəalar:**

- Həyat səviyyəsi və onun göstəriciləri sistemi ilə bağlı elmi-nəzəri baxışlar onlara münasibət bildirməyə imkan verir.

- Azərbaycanda kənd əhalisinin istehlak xərclərinin tərkibində ərzaq xərclərinin payının çox, qeyri-ərzaq və xidmət xərclərinin payının isə az olması onların bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə həyat səviyyəsinin aşağı olmasına gətirib çıxarır.

- Kənd yerlərində əhalinin gəlirlərinin strukturunda keyfiyyət dəyişiklikləri baş vermişdir.

- Kənd yerlərinin sosial-iqtisadi inkişafındakı gerilik uzun müddət istifadə olunan əşylarla təmin olunmada özünü göstərir. Bu tip əşyalara çəkilən xərclərin artması onların qiymətlərinin bahalaşması ilə də əlaqədardır.

- Naxçıvan iqtisadi rayonunda əhalinin həyat səviyyəsi digər iqtisadi rayonlarla müqayisədə daha yüksəkdir.

- Azərbaycanda kənd təsərrüfatı üzrə yaranan ÜDM-in həcmi daha çox əsas kapitala yönəldilən investisiyaların həcmindən və fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun həcmindən asılıdır. İnflyasiya amili isə kənd təsərrüfatı üzrə yaranan ÜDM-ə ciddi təsir göstərmir.

- Kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsindən ötrü kənd turizminin inkişafı zəruridir, bu isə məişət-abadlıq şəraitinin yaxşılaşdırılmasını zəruri edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- həyat səviyyəsi anlayışı və onu xarakterizə edən göstəricilər sistemi tədqiq edilmiş, mahiyyət və məzmunu açıqlanmışdır [19];

- həyat səviyyəsinin göstəriciləri kimi pul gəlirləri və pul xərclərinin müxtəlif əlamətlərə görə təsnifatı verilmişdir;

- kənd əhalisinin gəlirləri və xərcləri, onların quruluşunda baş verən dəyişikliklər təhlil edilərək onlara təsir göstərən sosial-iqtisadi amillər qiymətləndirilmişdiır [22];

- əhalinin uzun müddət istifadə olunan əşyalarla təminatı və onun quruluşunda baş verən keyfiyyət dəyişiklikləri təhlil edilərək qiymətləndirilmişdir [11];

- fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə kənd təsərrüfatının məhsulu, kənd təsərrqüfatında əsas kapitala yönəldilən investisiyalar və inflyasiyanın kənd təsərrüfatında yaranan ÜDM-ə təsiri ekonometrik qiymətləndirilmişdir. Kənd təsərrqüfatında əsas kapitala yönəldilən investisiyalar göstəricisi üzrə gələcək dövr üçün proqnoz qiymətləri müəyən edilmişdir [21];

- kənd əhalisinin məşğulluğunun yüksəldilməsində kənd turizminin inkişafının genişləndirilməsi istiqamətində onların məişət-abadlıq şəraitinin yaxşılaşdırılmasının vacibliyi əsaslandırılmışdır [15].

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işindən əldə olunmuş nəticələrdən kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı problemlərin həll olunmasında, cari dövr və perspektivdə hazırlanacaq layihə və proqramlarda, ARDSK-da bir sıra statistik hesabatların təkmilləşməsində istifadə edilə bilər.

Tədqiqat işi üzrə aparılan araşdırmaların nəticələri elmi tədqiqat, tədris və metodiki vəsaitlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Əldə edilmiş nəticələrlə bağlı Azərbaycan, Rusiya və Türkiyədə keçirilən konfrans və simpoziumlarda çıxışlar edilmişdir. Tədqiqat işi üzrə, 5-i xaricdə olmaqla, o cümlədən 2-i beynəlxalq xülasələndirmə və indeksləmə bazasına daxil olan jurnalda dərc edilməklə 23 elmi məqalə və tezis çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu.

**Dissertasiyanın həcmi.** Dissertasiya üç fəsil və doqquz paraqrafdan, giriş, nəticə və təkliflərdən ibarətdir. I fəsil 52175 işarə, II fəsil 84231 işarə, III fəsil isə 70287 işarədən, ümimilikdə dissertasiya işi isə 227700 işarədən ibarətdir.

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**Müddəa 1. Həyat səviyyəsi və onun göstəriciləri sistemi ilə bağlı elmi-nəzəri baxışlar onlara münasibət bildirməyə imkan verir.**

Həyat səviyyəsinin mahiyyəti ilə bağlı apardığımız nəzəri təhlil göstərir ki, bu anlayışın mahiyyəti bir çox mütəxəssislər tərəfindən müxtəlif dövrlərdə və müxtəlif variantlarda izah edilsə də, dünyanın hazırki ictimai inkişaf mərhələsində vahid bir istiqamət və meyar işlənib hazırlanmamışdır. "Həyat səviyyəsi" anlayışının mahiyyətinin konkretləşdirilməsi üçün müxtəlif yerli və xarici ölkələrin ədəbiyyatlarının, yanaşmaların tədqiq edilməsi ilə bu kateqoriyani əsaslandırmağa, mövqeyimizi bildirməyə etmişik. Beləliklə, həyat səviyyəsi dedikdə, fərdin, o cümlədən bütünlükdə cəmiyyətin həyat fəaliyyətinin sosial-iqtisadi şərtlərinin məcmusu başa düşülür ki, bu da cəmiyyətin əldə olunmuş inkişaf səviyyəsinə uyğun olan maddi, mənəvi, sosial tələbatların inkişaf səviyyəsini və onların ödənilməsi dərəcəsini əks etdirir. Həyat səviyyəsi dövlətin sosial-iqtisadi siyasətinin istiqamət və prioritetlərinin seçilməsində əsas meyardır.

Əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilər sistemi müxtəlif dövlərdə fərqli təsnifləşdirilmişdir. Həyat səviyyəsi anlayışı kimi onun göstəriciləri sistemi də daim mübahisə doğurur. Son illər dünya ölkələrində əhalinin həyat səviyyəsi, rifah halının qiymətləndirilməsi və müqayisəsi məqsədilə Yaxşı Həyat İndeksi (OECD Better Life İndex), Həyatdan Məmnunluq İndeksi (Satisfaction with Life Index), Xoşbəxt Planet İndeksi (Happy Planet İndex), Dayanıqlı Cəmiyyət İndeksi (Sustainable Society İndex), Sosial Tərəqqi İndeksi və s. bu kimi müxtəlif indekslərdən də geniş istifadə olunur. Respublikamızda regionlararası sosial-iqtisadi müqayisə və əhalinin həyat səviyyəsinin qiymətləndirilməsində AMEA İqtisadiyyat İnstitutunun hazırlayıb nəşr etdirdiyi "Azərbaycanda həyat keyfiyyəti-2018:iqtisadi rayonların, respublika tabeli şəhərlərin və inzibati rayonların reytinqi" də əhəmiyyətlidir.

Fikrimizcə əhalinin həyat səviyyəsinin xarakterizə edilməsində əhalinin gəlirləri, xərcləri, inteqral (adambaşına düşən ÜDM-in həcmi, asudə vaxt və ekoloji vəziyyət), demoqrafik

(doğulanda gözlənilən orta ömür müddəti, cins-yaş tərkibi, əhalinin sayının dinamikası, körpə və ana ölümü, nigah və boşanmaların sayı), fərdi (hər nəfərə düşən orta yaşayış sahəsi, mədəniyyət və istirahət, kommunal xidmətlər, hər nəfərə düşən fərdi torpaq sahəsi), yaşayış standartları, sosial sferada iştirak (təhsil səviyyəsi, səhiyyə xidmətlərindən istifadə, hər min nəfərə tibb personalının və çarpayıların sayı) kimi bütöv göstəricilər blokundan istifadə edilməsi məqsədəuyğundur.

**Müddəa 2. Azərbaycanda kənd əhalisinin istehlak xərclərinin tərkibində ərzaq xərclərinin payının çox, qeyri-ərzaq və xidmət xərclərinin payının isə az olması onların bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə həyat səviyyəsinin aşağı olmasına gətirib çıxarır.**

Ərzaq xərcləri həyat səviyyəsində baş verən keyfiyyət dəyişikliklərini ifadə edən vacib göstəricidir. Baxmayaraq ki, onun payı müqayisə edilən dövrün əvvəlində 56,4%-dən bir qədər azalaraq dövrün sonuna 42,2%-ə düşmüşdür, bununla belə yüksək xüsusi çəkiyə malik olmuşdur (Cədvəl 1).

**Cədvəl 1. Azərbaycan Respublikasında kənd yerləri üzrə əhalinin istehlak xərcləri və onun quruluşu, ayda hər nəfərə (yekuna görə faizlə və manatla)**

| | 2005 | | 2015 | | 2018 | | 2018-ci ildə 2005-cu ilə nisbətən | |
|---|---|---|---|---|---|---|---|---|
| | manat | % | manat | % | manat | % | | |
| İstehlak xərcləri, cəmi | 62,7 | 100 | 235.0 | 100 | 274,8 | 100 | 4,4 d | - |
| ərzaq | 35,4 | 56,4 | 96.1 | 40.9 | 115,9 | 42,2 | 3,3 d | -14,3 f.b |
| qeyri-ərzaq | 14,3 | 22,8 | 59,9 | 25,5 | 68,7 | 25 | 4,8 d | 2,2 |
| xidmət | 10,7 | 17 | 68,4 | 29,1 | 77,7 | 28,2 | 7,3 d | 11,2 |
| digər mal və xidmətlər | 2,2 | 3,5 | 10.6 | 4.5 | 12,7 | 4,6 | 5,8 d | 1,1 |

*Mənbə: Cədvəl https://www.stat.gov.az/source/budget_households/ əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Dünya təcrübəsində istehlak xərclərinin tərkibində ərzaq xərclərinin payının yüksək olması anormal hesab edilir. *"Normal*

*istehlak üçün ərzaq məhsullarına çəkilən xərclər əhali gəlirlərinin 1/3-dən çox olmamalıdır".* [1] Dünyanın inkişaf etmiş ölkələrində demək olar ki, bu prinsipə əməl olunur və ərzaq məhsullarına çəkilən xərclər digər xərclərdən az fərqlənir. Bu hər şeydən əvvəl bu ölkələrdə əhalinin tələbatlarından, istehlak mədəniyyətindən, regionun xüsusiyyətlərindən asılıdır. Həmçinin qeyd olunan ölkələrdə əhalinin gəlirləri də Azərbaycanla müqayisədə dəfələrlə yüksəkdir.

İnkişaf etmiş ölkələrdə əhalinin ərzağa çəkdikləri xərc istirahətə, restoran və kafelərə çəkdikləri xərclərdən çox deyil. Bəzi ölkələrdə Portuqaliya, İngiltərə, İsveçrə və s. kimi ölkələrdə isə əksinə azdır. Lüksemburq (8,7%), İngiltərə (10%), Norveç (11,8%), Almaniya (12,1%), Fransa (13,4%) kimi yüksək gəlirli və ərzaq məhsullarının qiymətləri yüksək olmayan ölkələrdə ailənin ərzaq xərclərinin payı 15%-dən çox deyil (Cədvəl 2).

**Cədvəl 2. Bəzi ölkələrdə ailələrin istehlak xərclərinin tərkibində ərzağa çəkdikləri xərclərinin digər xərclərlə müqayisəsi, %-lə**

| reytinq | ölkələr | ərzaq xərcləri | alkoqollu içkilər | restoran, kafe, otel | istirahət və mədəniyyət |
|---|---|---|---|---|---|
| 1 | Lüksenburq | 8,7 | 1,3 | 8,3 | 6,9 |
| 3 | Ingiltərə | 10,0 | 2,0 | 9,0 | 13,0 |
| 6 | Norveç | 11,8 | 2,7 | 3,6 | 10,0 |
| 8 | Almaniya | 12,1 | 1,7 | 5,7 | 10,4 |
| 14 | Fransa | 13,4 | 3,8 | 7,4 | 8,1 |
| 21 | Türkiyə | 19,7 | 4,5 | 6,2 | 2,7 |
| 25 | Estoniya | 23,8 | 3,7 | 4,6 | 10,2 |
| 31 | Rusiya | 31,2 | 3,0 | 3,3 | 6,9 |
| 32 | Litva | 31,5 | 3,0 | 3,3 | 6,9 |
| 37 | Belarus | 38,2 | 3,0 | 2,5 | 6,9 |
| 38 | Moldova | 43,4 | 1,5 | 1,8 | 1,3 |
| 39 | Qazaxıstan | 46,0 | 1,8 | 3,5 | 1,9 |
| 40 | Ukrayna | 50,9 | 3,9 | 2,8 | 1,9 |

*Mənbə: https://riarating.ru/countries/20181218/630114363.html əsasında hazırlanmışdır.*

[1] Попов А.И. // Экономическая теория. 4-еизд. – СПб.: Питер, - 2007. - 544 с.

Az gəlirli ailələrdə isə ailənin ərzağa çəkdiyi xərc 40-50% həcmində olur. Belə vəziyyət Engel qanununu bir daha təsdiqləyir.

Qeyd edək ki, əhalinin ərzaq məhsulları ilə təminatı onların gəlirləri ilə yanaşı, istehlak qiymətlərinin səviyyəsindən də asılıdır. Dünyanın inkişaf etmiş ölkələrində ərzağa çəkilən xərclərin xüsusi çəkisi çox olmadığından həmin ölkələrdə ərzaq məhsullarının qiymətlərinin dəyişilməsi əhalinin həyat səviyyəsinə bir o qədər də təsir göstərmir.

Kənd əhalisinin qeyri-ərzaq məhsullarına və xidmətlərə çəkdikləri məsrəflərin istehlak xərclərinin tərkibində xüsusi çəkisi artsa da onun artım sürəti müasir tələblərə cavab vermir. Kənd əhalisinin istehlak xərclərinin tərkibində xidmətlərin xüsusi çəkisinin aşağı olması bir tərəfdən əhalinin məcmu gəlirlərinin əsasən ərzağa olan ehtiyacları üçün kifayətləndirici olması ilə bağlıdırsa, digər tərəfdən kənd yerlərində xidmət sahələrinin yenicə inkişaf etdirilməsi və qiymətlərin yüksək olması ilə bağlıdır. Qeyd edək ki, kənd yerlərində xidmət sahəsində gerilik və problemlər “2003-2005-ci illər və 2008-2015-ci illər üçün yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramları sənədlərində də öz əksini tapmışdır. Həmçinin AR Səhiyyə Nazirliyinin 24 aprel 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş 2014-2020-ci illər üzrə Strateji planında da *“kənd yerlərinin ucqar yaşayış məntəqələrində ilkin səhiyyənin maddi-texniki bazasının lazımi səviyyədə olmaması, səhiyyə xidmətlərinə əlçatanlığın aşağı səviyyədə olması, kənd yerlərinin peşəkar kadrlarla təmin edilməməsi və s. problemlərin mövcudluğu vurğulanır”.*[2]

Əhalinin yaşayışı üçün zəruri olan istehlak mallarının və müxtəlif xidmətlərin bahalaşması müasir dövrün ən böyük sosial çətinliklərindən biridir. İnflyasiyanın artımı əhali gəlirlərinin real dəyərini aşağı salır və əhali gəlirlərinin çox hissəsini ərzağa xərcləməyə məcbur edir. Respublikada inflyasiyanın yaranmasına

[2] http://www.sehiyye.gov.az/sehiyye_nazirliyinin_emrleri-v-qrarlar.html

daha çox inhisarçılıq, qeyri-sağlam rəqabət, ölkənin pul-kredit sisteminin zəif olması, qiymət artımları səbəb olmuşdur.

**Müddəa 3. Kənd yerlərində əhalinin gəlirlərinin strukturunda keyfiyyət dəyişiklikləri baş vermişdir.**

Kənd əhalisinin pul gəlirlərinin tərkibində əmək haqqının payı 23,3%-ə yüksəlmişdir. Müqayisə edilən dövrün əvvəlində isə bu rəqəm 14,8% təşkil etmişdir (Cədvəl 3). Dünya ölkələrinin əksəriyyətində ailə gəlirlərinin əsas mənbəyini əmək haqqı təşkil edir. Respublikamızda da şəhər yerlərində əmək haqqı gəlirləri yüksək xüsusi çəkiyə malikdir.

**Cədvəl 3. Kənd yerləri üzrə əhalinin ayda hər nəfərinə düşən gəlirlərinin quruluşunda baş vermiş dəyişikliklər**

| | 2005 | | 2015 | | 2018 | | 2018-ci ildə 2005-ci ilə nisbətən | |
|---|---|---|---|---|---|---|---|---|
| | manatla | %-lə | manatla | %-lə | manatla | %-lə | manatla | dəfə |
| Gəlirlər-cəmi | 60,3 | 100 | 230.4 | 100 | 265,4 | 100 | 205,1 | 4,4 |
| Muzdla işləyənlərin əməyinin ödənilməsi | 8,9 | 14. | 50.3 | 21,6 | 61,9 | 23,3 | 53,0 | 7,0 |
| Özünüməşğulluqdan gəlirlər | 11,4 | 19. | 55.9 | 24,9 | 62,6 | 23,6 | 51,2 | 5,5 |
| Kənd təsərrüfatından gəlirlər | 22,6 | 37. | 61,0 | 26,1 | 67,4 | 25,4 | 44,8 | 3,0 |
| Icarədən gəlirlər | 0,6 | 1. | 1.2 | 0,5 | 1,3 | 0,5 | 0,7 | 2,2 |
| Əmlakdan gəlirlər | 0,2 | 0. | 0.3 | 0,1 | 0,3 | 0,1 | 0,1 | 50% |
| Alınmış cari transfertlər | 7,6 | 12. | 37.6 | 16,3 | 43,0 | 16,2 | 35,4 | 5,7 |
| o cümlədən pensiyalar | 6,0 | 10. | 30.4 | 13,1 | 34,0 | 12,8 | 28,0 | 5,7 |
| Digər gəlirlər | 9,1 | 15. | 24.1 | 10,4 | 29,0 | 10,9 | 19,9 | 3,2 |

*Mənbə: https://www.stat.gov.az/source/budget_households əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Dünyada elə bir ölkə yoxdur ki, orada kənd təsərrüfatı və ona yaxın olan meşə təsərrüfatı, ovçuluq, balıqçılıqla məşğul olmasınlar. Dünya əhalisinin 1 milyard nəfəri, yəni iqtisadi fəal əhalinin yarıya qədəri bu sahələrdə çalışır. Lakin bu göstəriciyə görə ölkələr arasında

böyük fərqlər mövcuddur. Məsələn, Dünya Bankının məlumatlarına əsasən, "*Qərbi Avropa ölkələrinin kənd təsərrüfatında orta hesabla iqtisadi fəal əhalinin 9%-i, Şimali Amerikada 1%-i, Azərbaycanda isə 36,3%-i çalışır. İnkişaf etməkdə olan ölkələrin bəzilərində bu göstərici daha yüksəkdir. Ümumilikdə yüksək gəlirli ölkələrdə kənd təsərrüfatında çalışanların payı az, aşağı gəlirli ölkələrdə isə daha yüksək olur*".[33]Aydın məsələdir ki, belə fərq kənd təsərrüfatı işlərinin mexanikləşdirilmə səviyyəsindən, həmçinin kənd təsərrüfatının ixtisaslaşdırılmasından, təbii şəraitdən, iqtisadi inkişafdan və digər amillərdən asılıdır.

Kənd təsərrüfatından əldə olunan gəlirlər kənd əhalisinin əsas gəlir mənbələrindən biri kimi çıxış edir. Bu göstərici üzrə gəlirlərin onların həyatında əhəmiyyətli rol oynamasına baxmayaraq, cəmi gəlirlərin tərkibində xüsusi çəkisi 12 faiz bəndi azalmaqla 37,4%-dən 25,4%-ə enmişdir.

Pensiyalar kənd əhalisinin gəlirlərinin tərkibində dördüncü ən çox xüsusi çəkiyə malik olan gəlirləridir. Bu göstərici üzrə gəlirlərin həcmində 2015-ci ilədək 3,1 faiz bəndi qədər artım olsa da, dövrün sonuna bir qədər azalma baş vermişdir.

Kənd yerlərində əhalinin gəlir mənbələrinə görə bölgüsünün təhlili son illər öz təsərrüfatında çalışanların sayında azalma baş verdiyini göstərir. Müqayisə edilən dövr ərzində öz təsərrüfatlarında çalışanların sayı 48,8%-dən 27,8%-ə düşmüşdür (Cədvəl 4.).

---

[3] https://data.worldbank.org/indicator/SL.AGR.EMPL.ZS

**Cədvəl 4. Kənd yerlərində iş yerlərinin əsas gəlir mənbələri üzrə əhalinin bölgüsü, faizlə**

| İllər | Dövlət sektorunda muzdlu iş | Özəl sektorda muzdlu iş | Kənd təsərrüfatında muzdlu iş | Sahibkarlıq, kommersiya və s. | Öz təsərrüfatında işləyir | Peşəsi üzrə sərbəst fəaliyyət | Xüsusi şəxs yanında iş | Pensiya | Təqaüd | Sosial müavinətlər | Himayədə | Ölkə xaricindən göndərilən pul | Ünvanlı sosial yardım | Digər mənbələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2005 | 8,2 | 1,9 | 0,3 | 4,1 | 48,8 | 8,9 | 3,4 | 14,9 | 0,2 | 0,6 | 8,0 | 0,7 | - | - |
| 2015 | 12,9 | 4,3 | 0,3 | 6,4 | 31,1 | 9.7 | 1,2 | 15,0 | 0,4 | 0,7 | 17,2 | 0,4 | 0,2 | 0,0 |
| 2018 | 15,1 | 3,9 | 0,4 | 6,7 | 27,8 | 9,1 | 1,3 | 16,0 | 0,4 | 0,9 | 18,0 | 0,2 | 0,1 | 0,0 |

*Mənbə:* *http://www.stat.gov.az*

Torpağa sahib olması ev təsərrüfatlarının bir tərəfdən təsərrüfat fəaliyyətinin genişlənməsinə səbəb olsa da, digər tərəfdən xalis (azad) rəqabətli təsərrüfatçılıq fəaliyyətini məhdudlaşdırır. Belə ki, bir tərəfdən bazar münasibətlərinin nəzəri-praktiki tələbinə uyğun olaraq kənd təsərrüfatı sahəsi çox sayda kiçik sahibkar təsərrüfatlarından formalaşmalıdır. Digər tərəfdən isə kənd təsərrüfatında kiçik təsərrüfat subyektləri özlərini ayrı-ayrılıqda əmək ehtiyatları ilə təmin etsələr də, digər istehsal vasitələri ilə, o cümlədən maliyyə vəsaitləri, xammal, material, texnika və s. ilə təmin etməkdə çətinlik çəkirlər. Qeyd edək ki, texnika çatışmaqzlığı, əkinlərə verilən mineral gübrələrin faktiki həcminin mövcud tələbatla müqayisədə az olması və s. problemlərdən kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində də bəhs edilmişdir.

Həm dövlət, həm də özəl sektorda muzdla çalışanların sayında artım baş versə də artım dövlət sektorunda daha yüksəkdir. Əsas gəlir mənbəyi pensiya, təqaüd və sosial müavinət olan əhali kateqoriyasının sayı 15,7%-dən 17,3%-ə yüksəlmişdir. Təəssüflə

qeyd etmək lazımdır ki, müqayisə edilən dövr ərzində himayədə yaşayan kənd əhalisinin sayında artım baş vermişdir.

**Müddəa 4. Kənd yerlərinin sosial-iqtisadi inkişafındakı gerilik uzun müddət istifadə olunan əşylarla təmin olunmada özünü göstərir. Bu tip əşyalara çəkilən xərclərin artması daha çox onların qiymətlərinin bahalaşması ilə də əlaqədardır.**

Həyat səviyyəsinin yaxşılaşması, o cümlədən, məişətdə komfort, vaxta qənaət edilməsi baxımından uzun müddət istifadə olunan əşyaların rolu böyükdür. Əhalinin bu tip əşyalarla təmin olunmasının genişlənməsi ilə yeni üsullarla evə gündəlik qulluq göstərilməsinə şərait yaranır ki, bu da, görülən işlərin səmərəliliyinin artmasına, sanitar-gigiyenik vəziyyətin yaxşılaşmasına həmçinin asudə vaxtın artmasına kömək edir.

Kənd yerlərinin sosial-iqtisadi inkişafındakı gerilik özünü, şəhər yerləri ilə müqayisədə, uzun müddətli istifadə olunan əşyalarla əhalinin təminatında daha aydın göstərir. Bu tip əşyalardan biri də fərdi kompyuter və internetə giriş qurğularıdır. Qeyd edək ki, kənd əhalisi informasiya mənbəyi kimi daha çox televizorlardan istifadəyə üstünlük verdiyindən peyk antennaları ilə təmin olunma daha yüksəkdir.

Minik avtomobiləri çox xərc tələb etməklə yanaşı, həyat səviyyəsini təmin etmək baxımından bir o qədər vacib hesab olunmasada, nüfuz, rahatçılıq, prestij baxımından önəmlidir. Aydındır ki, bu əmtəəyə çəkilən xərclərin artması ilə əhalinin yaşayış keyfiyyətinin yüksəlməsi arasında asılılıq vardır. Yaşayış yerləri üzrə müqayisəli təhlilə əsasən bu əşyalarla təmin olunma səviyyəsi getdikcə kənd əhalisinin xeyrinə dəyişmişdir. "*İlk baxışdan bu, müsbət hal kimi dəyərləndirilə bilər. Lakin qeyd etmək yerinə düşərdi ki, əhalinin bir qismi minik avtomobillərindən şəxsi komfort məqsədilə istifadə edirsə, bir qisim əhali isə bu tip əmtəələrdən daha çox gəlir əldə etmək məqsədi ilə istifadə edirlər. Bunlara taksi xidmətlərinin göstərilməsi, kənd yerlərində əhalinin fərdi*

*təsərrüfatlarından əldə etdikləri məhsulların bazarlara çıxarılaraq satışının həyata keçirilməsi və s. misal göstərmək olar*”.[4]

Əhalinin uzun müddət istifadə olunan əşyalarla təminatı və onun strukturu müxtəlif ölkələrdə bir-birindən ciddi şəkildə fərqlənir. Bu fərqlər cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafından asılıdır. Dissertasiyada Rusiya və Azərbaycanda ev təsərrüfatları üzrə uzun müddət istifadə olunan əşyalarla təminatı ilə bağlı təhlil aparılmışdır. Təhlilə əsasən Rusiyada hər 100 ev təsərrüfatına düşən uzun müddətli istifadə olunan əşyaların sayı respublikamızla müqayisədə çoxdur. Belə ki, *“Rusiyada ev təsərrüfatları dövrün əvvəlində televizorlarla 54,9 ədəd dövrün sonunda 76 ədəd, fərdi kompyuterlərlə müvafiq olaraq, 24,5 və 105,7 ədəd, soyuducu ilə 21,3 və 32,2 ədəd, paltaryuyan maşınla 67,2 və 20,8 ədəd, tozsoranla 35,9 və 3 ədəd, qabyuyan maşınla 0,9 və 7,3 ədəd, mikrodalğalı soba ilə 24,6 və 104,9 ədəd, minik avtomobili ilə isə 12,7 və 22 ədəd çox təmin olmuşdur”.*[5] Yalnız kondisionerlərlə respublikamızın əhalisi Rusiya əhalisi ilə müqayisədə daha çox təmin olunmuşdur.

Son illərdə, bu tip əşyalara çəkilən xərclərin həcmi artmışdır. Xərclərin artmasına əhalinin gəlirlərinin artması ilə yanaşı, bu tip əşyaların qiymətlərinin bahalaşması da səbəb olmuşdur. Belə ki, müqayisə edilən 2012-2018-ci illər ərzində “*istehlak olunan soyuducuların qiymətində 160,8 manat, paltaryuyan maşınların qiymətində 299,5 manat, kondisionerin qiymətində 286,9 manat, tozsoranların qiymətində 46 manat, mikrodalğalı sobanın qiymətində 53 manat, velosipedin qiymətində 87,6 manat artım olmuşdur*”.[6] Qeyd edək ki, son illər xarici valyuta (ABŞ dolları) məzənnəsində müşahidə olunan kəskin yüksəlmənin respublikaya idxal olunan

---

[4] Əliyeva, J. Əhalinin uzun müddət istifadə olunan əşyalarla təmin edilməsinin keyfiyyətcə dəyişilməsinin qiymətləndirilməsi // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2016, №1, - s.185-191

[5] Россия в цифрах-2019 г. Федеральная служба государственной статистики. Краткий статистический сборник. (по материалам выборочного обследования бюджетов домашних хозяйств. - Москва: - 2019. – 552с.

[6] http://www.stat.gov.az

malların qiymətlərinə bir başa təsiri nəticəsində 2015-ci ildən sonra uzun müddət istifadə olunan əşyaların orta illik qiymətlərində nəzərəçarpacaq artım baş vermişdir.

Gəlirləri aşağı olan ailələr bu tip əşyalara olan tələbatlarını daha çox bank və bank olmayan kredit təşkilatlarının təklif etdikləri istehlak kreditləri vasitəsi ilə də ödəməyə çalışırlar.

Belə ki, *"Mərkəzi Bankın məlumatlarına əsasən bank olmayan kredit təşkilatları istisna olmaqla bu istiqamətdə əhaliyə verilən qısamüddətli kreditlərin həcmi 2015-ci ildə 2013-cü illə müqayisədə 181milyon manat artaraq 1197,3 milyon manatdan 1378,3 milyon manata çatmışdır. 2018-ci ildə isə əhaliyə verilən bu tip kreditlərin həcmi bir qədər azalaraq 811,4 milyon manat olmuşdur".*[7]

**Müddəa 5. Naxçıvan iqtisadi rayonunda əhalinin həyat səviyyəsi digər iqtisadi rayonlarla müqayisədə daha yüksəkdir.**

Azərbaycanda ev təsərrüfatları üzrə aparılmış müayinə materiallarının təhlili iqtisadi rayonlar üzrə əhalinin həyat səviyyəsi göstəriciləri üzrə fərqlərin olduğunu göstərir. Müqayisə edilən dövr ərzində, gəlir və istehlak xərclərinə görə, Naxçıvan iqtisadi rayonu digərlərindən irəlidədir. Bu göstəricilər üzrə yalnız Bakı şəhərindən geridir. Bu iqtisadi rayonda əhalinin istehlak xərclərinin həcmi Bakı şəhərindən dövrün əvvəlində 9,4 manat, dövrün sonunda isə 4,9 manat az olmuşdur (Cədvəl 5). Pul gəlirləri üzrə isə müvafiq olaraq, 8,9 manat və 2,3 manat geridir.

**Cədvəl 5. İqtisadi rayonlar üzrə pul gəlirləri və istehlak xərcləri, ayda hər nəfərə, manatla**

| | İstehlak xərcləri | | Pul gəlirləri | |
|---|---|---|---|---|
| | 2005 | 2018 | 2005 | 2018 |
| Ölkə üzrə | 52.1 | 286,0 | 64,4 | 264,4 |
| Naxçıvan | 50.9 | 311,0 | 50,3 | 303,5 |
| Abşeron | 50.8 | 276,3 | 48,1 | 267,9 |
| Gəncə-Qazax | 49.8 | 279,2 | 47,8 | 268,6 |

[7] Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik bülleteni. - Bakı- 2019. №12(237).- 72 s.

| | | | | |
|---|---|---|---|---|
| Şəki-Zaqatala | 49.2 | 270,4 | 47,9 | 260,3 |
| Lənkəran | 48.8 | 282,7 | 47,0 | 271,2 |
| Quba-Xaçmaz | 51.6 | 277,3 | 48,3 | 267,7 |
| Aran | 48.5 | 267,6 | 47,0 | 256,8 |
| Yuxarı Qarabağ | 47.3 | 273,1 | 45,7 | 267,1 |
| Dağlıq Şirvan | 48.1 | 280,6 | 46,1 | 270,8 |
| Kəlbəcər-Laçın | - | 280,8 | - | 268,7 |
| Bakı şəhəri | 60.3 | 315,9 | 59,2 | 305,8 |

*Mənbə: http://www.stat.gov.az*

Qeyd edək ki, iqtisadi rayonlar üzrə əhalinin həyat keyfiyyətinin qiyətləndirilməsində və regional fərqlərin ortaya çıxarılmasında Azərbaycanın iqtisadi rayonlarının Həyat Keyfiyyəti İndeksi son dərəcə əhəmiyyətlidir. İndeks üzrə nəticələrə görə də həyat keyfiyyətinin ən yüksək olduğu bölgə Naxçıvan Muxtar Respublikasıdır. Bu iqisadi rayon 7 sub-indeksin 4-ü üzrə (Maddi rifah, Sağlamlıq, Təhlükəsizlik və Asudə vaxt imkanları) liderdir, Ekologiya və Təhsil sub-indeksləri üzrə isə, müvafiq olaraq, 2 və 3-cü yerlədə qərarlaşmışdır. Yeganə zəif nöqtəsi ailə möhkəmliyidir (Cədvəl 6).

**Cədvəl 6. Naxçıvan iqtisadi rayonun Həyat Keyfiyyəti İndeksinin (HKİ) sub-indeksləri üzrə mövqeyi**

| Sub-indekslər | Sıralamada yeri | Aldığı bal | Sub-indeksin orta çəkisi, % | Sub-indekslər arası interval |
|---|---|---|---|---|
| maddi rifah (MR) | 1 | 2,97 | 22 | 1,74-3,11 |
| Sağlamlıq (SL) | 1 | 3,42 | 17 | 2,36-3,97 |
| təhsil (TS) | 3 | 2,55 | 18 | 1,61-3,48 |
| təhlükəsizlik (THL) | 1 | 4,95 | 11 | 2,6-5,0 |
| ailə möhkəmli (AM) | 6 | 3,68 | 14 | 1,78-4,83 |
| Ekologiya (EKO) | 2 | 3,65 | 11 | 2,31-4,44 |
| asudə vaxt imkanı (AVİ) | 1 | 2,44 | 7 | 1,67-3,12 |

*Mənbə:http://economics.com.az/images/fotos/Kitablar/HeyatKeyNazimAz.pdf əsasında hazırlanmışdır.*

Dissertasiyada iqtisadi rayonlarda bəzi sosial-iqtisadi göstəricilər üzrə təhlillər aparılmışdır. Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində sağlamlıq göstəriciləri, o cümlədən həkim və orta tibb işçilərinin sayı çoxdur. Respublikamızda isə ölkə üzrə hər min nəfərə həkimlərin sayı 3,2 nəfər, orta tibb işçilərinin sayı 5,6 nəfər olmuşdur. DSK-nin məlumatları ölkəmizdə iqtisadi regionlar üzrə bu göstəricilər üzrə vəziyyətin bir o qədərdə yaxşı olmadığını göstərir. Naxçıvan iqtisadi rayonun hər iki göstərici üzrə vəziyyət Dünya Bankının orta gəlirli və aşağı-orta gəlirli ölkələr üçün müəyyən etdiyi həddə (müvafiq olaraq 1,4-2,7 və 1,3-2,5 nəfər) uyğun olmuşdur. Daha yüksək nəticə isə Bakı şəhəri, Aran və Gəncə-Qazax iqtisadi rayonlarında olmuşdur.

İqtisadi rayonlar üzrə yeni açılmış iş yerlərinin təhlilinə əsasən 2018-ci ildə yeni açılmış iş yerlərinin tərkibində daimi iş yerlərinin payının çox olduğu iqtisadi rayonlar Naxçıvan və Abşeron (98%) olmuşdur.

Yuxarıda qeyd edilənlər Naxçıvan iqtisadi rayonunda əhalinin həyat səviyyəsinin digər iqtisadi rayonlarla müqayisədə daha yaxşı olduğunu deməyə əsas verir.

**Müddəa 6. Azərbaycanda kənd təsərrüfatı üzrə yaranan ÜDM-in həcmi daha çox əsas kapitala yönəldilən investisiyaların həcmindən və fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun həcmindən asılıdır. İnflyasiya amili isə kənd təsərrüfatı üzrə yaranan ÜDM-ə ciddi təsir göstərmir.**

Hesablamalar MathWorks MATLAB Software 2017a mühitində aparılmışdır.Araşdırılan zaman sıraların stasionarlığı vahid kök testi olan Kvyatkovski-Filips-Şmidt-Şin testindən istifadə edilməklə yoxlanılmış və müsbət nəticə alınmışdır. Göstəricilər arasındakı asılılıq dərəcəsi Çeddok şkalasına görə müəyyən edilmişdir. Müəyyən edilmişdir ki, kənd təsərrüfatı üzrə ÜDM və fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulu (0,9983), kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiya və kənd təsərrüfatı üzrə ÜDM (0,9167), kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiya və fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulu (0,9268) arasında çox güclü düz, dəyişənlərin hər birinin inflyasiya ilə aralarında mənfi orta korrelyasiya əlaqəsi vardır.

Beləliklə, digər göstəricilər sabit qaldıqda fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun 1 vahid artımı kənd təsərrüfatında yaranan ÜDM-in həcminin 0,66 vahid, inflyasiyanın 1 vahid artımı isə 0,01 vahid artımına səbəb olmuşdur. 2 il əvvəlki fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun 1 vahid artması kənd təsərrüfatında yaranan ÜDM-in həcminin 0,11 vahid azalmasına, 3 il əvvəlki fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun 1 vahid artımı isə kənd təsərrüfatında yaranan ÜDM-in həcminin təqribən 0,16 vahid artımına səbəb olmuşdur. Maraqlıdır ki, model qurulduqda aydın oldu ki, inflyasiyanın əvvəlki illərdəki (1,2,3-cü il) göstəriciləri ÜDM-in dəyişməsinə təsir göstərməyib. Belə ki, modelin adekvatlığını araşdırarkən həmin dəyişənlərin əmsallarının əhəmiyyətsiz olduğu “Student” meyarı ilə müəyyən olunub. Ona görə də həmin dəyişən və əmsallar modeldə nəzərə alınmamışdır.

İnvestisiyanın cari ildə 1 vahid artımı ÜDM-in 2,63 vahid, 3 il əvvəl qoyulmuş investisiyanın 1 vahid artımı cari ildə ÜDM-in 2,75 vahid, cari və əvvəlki illərdəki investisiya artımının 1 vahid artması cari ildə ÜDM-in 2,18 vahid artımına səbəb olmuşdur. Kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyalar üçün proqnoz qiymətlərin tapılması məqsədi ilə ARIMA (Auto Regressive Integrated Moving Average) modelindən istifadə edilmişdir. Proqnoz qiymətlərinə əsasən investisiyanın 2021 və 2022-ci illərdə 0,55 mlrd manata qədər azalması, 2022-ci ildən sonra artacağı, 2023-cü ildə 0,65, 2024-cü ildə 0,75, 2025-ci ildə isə bir qədər də artaraq 0,81 mlrd manat həddinə çatacağı müşahidə olunur.

**Müddəa 7. Kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsindən ötrü kənd turizminin inkişafı zəruridir, bu isə məişət-abadlıq şəraitinin yaxşılaşdırılmasını zəruri edir.**

Alternativ qeyri-kənd təsərrüfatı sahəsi kimi kənd turizmi kənd yerlərində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında müstəsna rol oynayır.

Məlumdur ki, son illər gəlir əldə etmək məqsədilə kənd əhalisi öz evlərini icarəyə verməkdə maraqlıdır. Kənd turizminin inkişafı, kənd əhalisinin bu fəaliyyət növündən istifadə edə bilmələri üçün isə onların lazımi məişət şəraitinin olması vacibdir. “*Təəssüf ki, turizmin*

*bu növü ilə məşğul olmaq istəyən kənd əhalisi arasında məişət şəraitinin turistləri qane edə biləcək səviyyədə olmayanların sayı az deyil. Sanitar-gigiyenik normalara cavab verən sanitariya qovşaqlarının və mətbəxin olmaması, bir çox kəndlərdə evlərin su, işıq və digər kommunal təchizatının aşağı səviyyədə olması turizm xidmətlərinə maneə yaradır. Turistləri cəlb etmək üçün kifayət qədər komfortlu mənzilin, kanalizasiya sisteminin, su təchizatının bir sözlə məişət şəraitinin olması zəruridir*”.[8]

Statistik məlumatların təhlilinə əsasən kənd yerlərində mərkəzi isitmə sistemi, isti su təchizatı, su kəməri ilə təmin olunma aşağı səviyyədədir. 2018-ci ildə evində su kəməri olmayan kənd əhalisinin sayı 24,4% təşkil etmişdir. 3,5% əhali kanalizasiya sistemi ilə təmin olunmayıb. Yolların təmiri, körpülərin tikilməsi ilə əlaqədar olaraq işlər görülsədə 20,1% kənd əhalisi nəqliyyat dayanacağına çatmaq üçün ən azı 15-30 dəqiqə vaxt sərf etməli olur. Telefonla isə əhalinin 60%-i əhatə olunub.

Qeyd edək ki, turistlərin istəyinə uyğun şəraitin yaradılması, onlara müvafiq xidmətin göstərilməsi müəyyən maddi xərclər tələb etsədə gələcəkdə xərclər artıqlaması ilə ev sahibinə qayıda bilər. Kənd yerlərində abadlıq şəraitinin yaxşılaşdırılması məqsədilə kiçik kreditlərin verilməsi onların bu turizm növündən əldə edə biləcəkləri gəlirləri artıra bilər.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

• Təhsillə bağlı: Kənd yerlərində 1-5 yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəliliyi aşağıdır. Hazırda kənd yerlərində məktəblərin əksəriyyətinin internetə çıxışı yoxdur. Tədris müəssisələrində kompyuterlərlə təminat, İT dəstək və bu sahədə işçi heyəti ilə bağlı problemlərin həlli, distant təhsilin mümkün hala

[8] Əliyeva, J. Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında kənd turizminin rolu və onun mövcud vəziyyəti // Bakı: Bakı Mühəndislər Universitetinin jurnalı, 2018, №2, - s.159-163.

gətirilməsi, distant dərslərin həyat keçirilməsi ilə bağlı həm müəllimlərdə, həm də təhsil alanlarda vərdiş və bacarıqların formalaşdırılması zəruridir. Son illər kənd yerlərində ali təhsillilərin sayı texniki-peşə təhsillilərin sayını üstələyir. Gənclərin texniki-peşə ixtisasına yiyələnmələri istiqamətində maarifləndirilmələri məqsədə uyğun olardı..

• Səhiyyə ilə bağlı: kənd yerlərində ilkin tibbi yardım sisteminin səmərəliliyinin artırılması, tibbi ləvazimatla təminat, kadr çatışmazlığı probleminin həlli və fəaliyyət göstərən tibbi personalın hazırlığının təkmilləşdirilməsi, kənd əhalisi arasında sağlam həyat tərzi mədəniyyətinin təşviq edilməsi kimi tədbirlərinin təşkili zəruridir.

• İstehlak xərcləri ilə bağlı: İstehlak xərclərinin tərkibində ərzaq xərcləri üstünlük təşkil edir. Kənd əhalisinin istehlak xərclərinin tərkibində xidmətlərin xüsusi çəkisinin aşağı olması bir tərəfdən əhalinin məcmu gəlirlərinin əsasən ərzağa olan ehtiyacları üçün kifayətləndirici olması ilə bağlıdırsa, digər tərəfdən kənd yerlərində xidmət sahələrinin geriliyi və qiymətlərin yüksək olması ilə bağlıdır. Əhalinin yaşayışı üçün zəruri olan istehlak mallarının və müxtəlif xidmətlərin bahalaşması müasir dövrün ən böyük sosial çətinliklərindən biridir. İnflyasiyanın artımı əhali gəlirlərinin real dəyərini aşağı salır və əhali gəlirlərinin çox hissəsini ərzağa xərcləməyə məcbur edir. Respublikada inflyasiyanın yaranmasının əsas səbəblərindən olan inhisarçılığın dövlət tənzimlənməsinin effektivliyini artırılması, sağlam rəqabətin məhdudlaşdırılması və qiymət artımı hallarının qarşısının alınması məqsədilə həyata keçirilməkdə olan tədbirlərin gücləndirilməsi əhalinin yaşayışı üçün zəruri olan əmtəə və xidmətlərin qiymətlərinin ucuzlaşmasında və əhalinin istehlak xərclərinin tərkibinin keyfiyyətcə zənginləşdirilməsində mühüm rol oynaya bilər.

• Əhalinin gəlirləri ilə bağlı: Respublikamızda müqayisə edilən dövr ərzində kənd əhalisinin gəlirlərinin tərkibində əmək haqqının payının 14,8%-dən 23,3%-ə yüksəlməsinə baxmayaraq, onun həcmi qəbul edilmiş beynəlxalq normadan aşağıdır. 2004-cü ildə “Dəyişdirilmiş Avropa Sosial Xartiyası”na qoşulan respublikamızda

minimum əmək haqqının ölkə üzrə orta aylıq əmək haqqının 60 faizindən az olmaması prinsipinin təmin edilməsi məqsədə uyğundur

• Kənd təsərrüfatının inkişafı ilə bağlı: Kənd yerlərində satış üçün becərilən torpaqların həcmində, öz təsərrüfatında çalışanların sayında azalma baş vermişdir. Kənd təsərrüfatında kiçik təsərrüfat subyektləri özlərini maliyyə vəsaitləri, xammal, material, texnika və s. ilə kifayət qədər təmin edə bilmirlər. Kənd təsərrüfatında, mülkiyyət baxımından sərbəst qalmaqla, kontrakt əsasında kooperasiyaların və onun işləmə müxanizminin yaradılması, inkişafının təşviqi məqsədə uyğundur.

Kənd təsərrüfatında fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlərin tərkibində uzunmüddətli kreditlərin həcmi daha çoxdur. Fikrimizcə sahibkarlara aşağı faiz stavkaları ilə uzunmüddətli kreditlərin verilməsi məqsədə uyğundur.

Kənd təsərrüfatında sığorta mexanizminin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması yolu ilə investisiya cəlbediciliyi artırılmalıdır.

• Azərbaycanda kənd təsərrüfatı üzrə yaranan ÜDM-in həcminə kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyaların həcmi, fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun həcmi və inflyasiyanın təsiri və onlar arasındakı asılılığın qiymətləndirilməsi nəticəsində müəyyən edilmişdir ki, digər göstəricilər sabit qaldıqda fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun 1 vahid artımı kənd təsərrüfatında yaranan ÜDM-in həcminin 0,66 vahid, 2 il əvvəlkifərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun 1 vahid artması kənd təsərrüfatında yaranan ÜDM-in həcminin 0,11 vahid azalmasına, 3 il əvvəlki fərdi sahibkar təsərrüfatları üzrə kənd təsərrüfatı məhsulunun 1 vahid artımı isə kənd təsərrüfatında yaranan ÜDM-in həcminin təqribən 0,16 vahid artımına səbəb olmuşdur. İnvestisiyanın cari ildə 1 vahid artımı ÜDM-in 2,63 vahid, 3 il əvvəl qoyulmuş investisiyanın 1 vahid artımı cari ildə ÜDM-in 2,75 vahid, cari və əvvəlki illərdəki investisiya artımının 1 vahid artması cari ildə ÜDM-in 2,18 vahid artımına səbəb olmuşdur. Kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyalar üçün proqnoz qiymətlərinə əsasən investisiyanın 2022-ci ildən sonra artacağı, 2023-cü ildə 0,65, 2024-

cü ildə 0,75, 2025-ci ildə isə bir qədər də artaraq 0,81 mlrd manat həddinə çatacağı müşahidə olunur.

• Məşğulluqla bağlı: Kənd yerlərində əhalinin həyat səviyyəsinin yüksəldilməsinin başlıca şərtlərindən biri məşğulluğun təmin edilməsidir. Regionlarda yeni yaradılmış iş yerlərinin daha çox daimi olmasına diqqət verilməlidir. "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulduğu kimi kənd yerlərində kiçik və orta sahibkarlığın, əhalinin özünü məşğulluğunun inkişafı üçün əlverişli biznes mühiti yaradılmalıdır.

Aztəminatlı ailələrin müstəqil qazanc mənbəyinin formalaşmasına yönəldilən özünüməşğulluq proqramının maliyyə dayanıqlılığının, özünüməşğulluğu dəstəkləyən tədbirlərin səmərəliliyinin və miqyasının artırılmalıdır.

Kənd təsərrüfatında çalışanların orta aylıq nominal əmək haqqı iqtisadiyyatın digər sahələri ilə müqayisədə çox aşağıdır.

Kənd turizmi ilə bağlı: Kənd yerlərində turizm təsərrüfatının inkişafı müstəsna sosial-iqtisadi əhəmiyyətə malikdir. Kənd turizminin inkişafı, kənd əhalisinin bu fəaliyyət növündən istifadə edə bilmələri üçün onların lazımi məişət şəraitinin olması vacibdir. Kənd əhalisinin sanitar-gigiyenik, məişət və abadlıq şəraitinin yaxşılaşdırılmasında müasir su təmizləyici qurğularından istifadə ilə təminat zəruridir. Turistlərin istəyinə uyğun şəraitin yaradılması, onlara müvafiq xidmətin göstərilməsi müəyyən maddi xərclər tələb etsədə gələcəkdə xərclər artıqlaması ilə ev sahibinə qayıda bilər. Abadlıq şəraitinin yaxşılaşdırılması məqsədilə aşağı faizlə kiçik keditlərin əlçatarlığı onların bu turizm növündən əldə edə biləcəkləri gəlirləri artıra bilər. Kənd turizminin inkişafının genişləndirilməsi istiqamətində: kəndlərin, kənd arası yolların bərk örtüklü avtomobil yolları ilə örtülməsi; kənd turizminin inkişafı və genişləndirilməsi üçün kənd əhalisinin lazımi informasiya ilə təmin edilməsi və onların bu sahədə bacarıqlarının artırılması istiqamətində treninqlərin keçirilməsi, kənd turizmi ilə məşğul olan əhali arasında internet və müasir texnologiyalardan istifadə etməklə öz təkliflərini online yerləşdirmə və sifariş qəbul edə bilmə kimi bacarıqların aşılanması məqsədə uyğundur.

**Dərc olunmuş elmi əsərlərin siyahısı:**

1. Əliyeva J.R. Kənd əhalisinin istehlak xərclərinin quruluşunda baş verən dəyişikliklərin təhlili // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat Elmləri Seriyası, - 2007. № 4, - s. 205-209.

2. Əliyeva J.R. Yaşayış minimum və kənd əhalisinin ərzaq xərclərinin keyfiyyət tərkibinin təhlili // Bakı: Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri, - 2008. № 4, - s. 311-316.

3. Алиева Ж.Р. Влияние потребительских расходов на уровень жизни сельского населения // Актуальные проблемы экономики и совершенствования правового регулирования в экономике, Меж. Науч-прак. Конференции, - Пятигорск: 2009, - стр. 108-113.

4. Əliyeva J.R. Ərzaq təhlükəsizliyi və kənd əhalisinin ərzaq məhsulları ilə təminatına dair // - Bakı: İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans, - Bakı: Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, AETKTİ və Tİ, - 2010, - s. 41-42.

5. Əliyeva J.R. Əhalinin ərzaqla təminatının bəzi məsələləri // Aqrar iqtisadiyyat: Müstəqilliyin 20 ilində mövzusunda beynəlxalq elmi-praktik konfrans, - Bakı: Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, AETKTİ və Tİ, - 2011, - s. 223-226.

6. Əliyeva J.R. Müstəqillik illərində kənd əhalisinin həyat səviyyəsi və onun dəyişilməsi meylləri // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, - 2011. IV buraxılış, s. 402-407.

7. Əliyeva J.R. Əhalinin həyat səviyyəsi və onun göstəriciləri sistemi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, - 2011. III buraxılış, s. 418-423.

8. Əliyeva J.R. Kənd əhalisinin həyat səviyyəsi ilə onların gəlirlərinin qarşılıqlı əlaqəsi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası, - 2012. №1, s. 80-83.

9. Əliyeva J.R. Azərbaycan Respublikasında kənd əhalisinin yoxsulluq səviyyəsinin qiymətləndirilməsi // Bakı: Azərbaycan Universitetinin İpək Yolu elmi jurnalı, - 2012. №3, s. 105-110.

10. Əliyeva J.R. Əhalinin uzun müddət istifadə olunan əşyalar üzrə xərcləri və ona təsir göstərən sosial-iqtisadi amillər // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası, - 2013. №1, s. 156-158.

11. Əliyeva J.R. Əhalinin uzun müddət istifadə olunan əşyalarla təmin edilməsinin keyfiyyətcə dəyişilməsinin qiymətləndirilməsi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Elmi əsərləri, - 2016. №1, s. 185-191.

12. Əliyeva J.R. Əhalinin həyat səviyyəsinə təsir göstərən iqtisadi amillər və onların qiymətləndirilməsi // XXI əsrdə dünya elminin inteqrasiya prosesləri Gənclərin beynəlxalq elmi forumu, - Azərbaycan, Gəncə: - 10-14 oktyabr 2016., - s. 225-227.

13. Əliyeva J.R. Kənd yerlərində əhalinin məşğulluğunun müasir vəziyyəti və onun artırılması istiqamətləri // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının İqtiadiyyat İnstitutunun Elmi əsərləri, - 2017. №5, s. 187-192.

14. Əliyeva J.R. Əhalinin pul gəlirləri və istehlak xərclərinin quruluşunda regional fərqlər və onlara təsir göstərən bəzi amillərin qiymətləndirilməsi // Bakı: Bakı Mühəndislər Universitetinin jurnalı, - 2018. №1, s. 75-81

15. Əliyeva J.R. Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında kənd turizminin rolu və onun mövcud vəziyyəti // Bakı: Bakı Mühəndislər Universitetinin jurnalı, - 2018. №2, s. 159-163.

16. Əliyeva J.R. Kənd yerlərində sahibkarlığın maliyyə təminatındaki problemlər və onun aradan qaldırılması yolları // Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının

96-cı ildönümünə həsr olunmuş "Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda respublika elmi konfrans, - Bakı: SDU, - 25-26 aprel 2019, s. 319-321.

17. Алиева Ж.Р. Роль частного предпринимательства в сельском хозяйстве в повышении уровня жизни сельского населения Азербайджана и эконометрическая оценка его влияния на ВВП // «Актуальные проблемы социально-трудовых отношений» посвященная 60-летию Института социально-экономических исследований ДВИЦ РАН, Меж. Научно-прак. Конференция, - Россия, Республика Дагестан, г.Махачкала, - 22 ноября 2019, стр. 183-191.

18. Əliyeva J.R. Təhsil kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin amili kimi // Ümummilli lider H.Əliyevin 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanda ali təhsilin beynəlmilləşdirilməsi və rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, - Bakı: Bakı Biznes Universiteti, - 2019, s. 262-264.

19. Əliyeva J.R. Həyat səviyyəsi" anlayışı, ona nəzəri baxışlar və yanaşmalar // Bakı: Azərbaycan Koopersiya Universitetinin "Kooperasiya" elmi-praktiki jurnalı, - 2020. №1, s. 236-243.

20. Əliyeva J.R. Kənd əhalisinin həyatında kənd təsərrüfatının rolu və yeri // "Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, - Bakı, BBU, - 2020, s. 180-183.

21. Алиева Ж.Р. Значение сельского хозяйства в улучшении уровня жизни сельского населения в Азербайджане // "Экономика и предпринимательство" научный журнал, (включен в Перечень ВАК-а РФ, в базу РИНЦ), - 2021. №2, стр. 618-622.

22. Алиева Ж.Р. Анализ некоторых социальных факторов влияющих на уровень жизни сельского населения Азербайджанской Республики // Georgia: Ivane Javakhishvili Tbilisi State University Paata Gugushvili Institute of Economics International Reviewed Scientific-Analytical Journal, Ekonomisti,

(The journal is indexed in a large search engine database-ERIH PLUS), - 2021. №1, стр. 106-112.

23. Aliyeva J.R. Azerbaycanda kırsal nüfusun nakit gelirleri ve onun yapısındaki değişikliklerin değerlendirilmesi // Beynəlxalq Maliyyə Simpoziumu, - Türkiyə, Tekirdağ Namik Kamal Universiteti, - 2021, s. 34-37.

Dissertasiyanın müdafiəsi 27 oktyabr 2021-ci tarixində saat $11^{00}$-da

AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115
e-mail:economicscomaz@gmail.com

Dissertasiya ilə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaqolar.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.09.2021
Kağızın formatı:A5
Həcm:39448
Tiraj:100